# Xalqının qəhrəman oğlu



**Tofiq Şəmsəddin oğlu Əmirli 28 illik qısa ömründə vətəni, xalqı üçün olduqca gərəkli işlər gördü. 44 günlük haqq savaşımızda canı bahasına 30 il əsir düşən Qarabağımızı azad edən qəhrəmanlardan biri kimi adını şanlı tariximizə yazdırdı. Ömrünü vətənin azadlığı, gələcək nəsillərin xoşbəxtliyi naminə qurban verən Tofiq ucaldığı hünər və şərəf zirvəsində daha möhtəşəm görünür. Necə deyərlər, müqəddəsliyinə tapındığı doğma Azərbaycanla döyünən ürəyi indi milyonların qəlbində vurur...**

Bu gün adını böyük iftixarla çəkdiyimiz unudulmaz qəhrəman Tofiq Əmirli Cəlilabad rayonunun Göytəpə şəhərində boya-başa çatıb. 1998-2009-cu illərdə Göytəpə şəhər Vüqar Mürsəlov adına 1 saylı tam orta məktəbində təhsil alıb. Məktəbdə oxuduğu zaman vətəninə, xalqına fayda vermək onun həyat amalına dönüb. Müəllimləri və sinif yoldaşlarının sevimlisinə çevrilən Tofiqin vətən üçün layiqli övlad olacağına bütün el-oba inanırdı. Torpaqlarımızın düşmən tapdağı altında olması ilə barışmayan Tofiq Əmirlinin əsgərliyi Naxçıvan sərhəd diviziyasında keçib. Vətən torpaqlarını qorumaq bacarığı, haqq naminə yüksək döyüş ruhu, vicdanlı, qeyrətli olması ona həmişə ehtiram qazandırıb.

Vətənpərvər gəncin sərhədçi peşəsinə olan marağı onu 2014-cü ildən yenidən Dövlət Sərhəd Xidməti sıralarına qaytarıb. Təlim kurslarını uğurla başa vurandan sonra 2018-ci ilin may ayının dördünə qədər Çevik Hərəkət Briqadasında manqa komandiri, kəşfiyyatçı vəzifələrində çalışıb. Xüsusi peşəkarlıq göstərərək böyük hörmət sahibi olub. Həmçinin işgüzar keyfiyyətlərinə görə Çevik Hərəkət Qüvvələrinin Çevik Hərəkət Dəstəsinə seçilib, zəhmətsevərliyi və intizamı sayəsində qısa müddət ərzində əməliyyatçı-snayper kimi formalaşıb. Bütün bunlarla bərabər, vətəni canından əziz bilən Tofiqin qəlbində düşmənə qarşı intiqam, qisas hissi bir an belə olsa, azalmayıb.

30 ilə yaxın erməni əsarətində qalan Qarabağın azadlığı naminə başlanan Vətən müharibəsinin birinci günü Tofiq Əmirli Füzuli rayonunda döyüşlərə qatılıb. Onun bacarığı və qorxmazlığı, yüksək döyüş məhareti ilk zəfərimizə səbəb olub. Cəbrayılda və Qubadlıda ağır müharibə meydanında göstərdiyi rəşadət yeni-yeni qələbələrə yol açıb. Oktyabrın 13-də Cəbrayılın Minək kəndi uğrunda gedən savaşda qəhrəmanlıqla döyüşən Tofiq özünü təhlükəyə ataraq səngərdə susuz qalan əsgər yoldaşlarına 500 metr uzaqdan su gətirib. Döyüş vaxtı Tofiq və digər hərbçi yoldaşı silahlarını dolduran zaman ikisinin arasına mərmi düşüb. Hərbçi yoldaşı ağır yaralanıb. Tofiq isə şəhid olub.

Gizir Tofiq Əmirli ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", Cəbrayılın, Xocavəndin azadlığına görə medalları ilə təltif olunub.

Yazımı şəhidimiz Tofiqin atası Şəmsəddin kişinin ürək göynədən fikirləri ilə tamamlayıram. O deyir: "Mən gecə yuxuda görmüşdüm ki, Tofiq şəhid olub. Amma özümü inandırmağa çalışırdım ki, ona heç nə olmayıb. Çünki anası da narahat idi, istəmirdim o da bilsin. Yuxuda gördüm ki, evimizə hücum ediblər, amma silah aşağı mərtəbədədir. Anasını yuxudan oyadırdım ki, silahın yerini desin, çünki düşmən yaxınlaşırdı. Elə oldu ki, oktyabrın 13-də Tofiqin şəhid xəbəri gəldi. Oktyabrın 14-də isə onu böyük izdihamla dəfn etdik. Tofiq həmişə deyirdi ki, "şəhid olmaqdan qorxmuram, amma qorxuram ki, anam dözməyə". Belə də oldu. Tofiqdən sonra anası da dünyasını dəyişdi".